Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Əfsanələşən partizan ömrü – Əhmədiyyə Cəbrayılov

**Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Əfsanələşən partizan ömrü – Əhmədiyyə Cəbrayılov:** Əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 31 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin sentyabr ayında Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçmişdir. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü surətdə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda Müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir. Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu Mikayıl Cəbrayılov Azərbaycanın ilk Milli Qəhrəmanlarındandır.

Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 avqust 2020-ci il.**

## Tərtibçidən

Bilirik ki, keçən əsrdə bəşəriyyətin üzləşdiyi ən dəhşətli faciələrdən biri olan ikinci dünya müharibəsi, 1933-cü ildə Adolf Hitlerin hakimiyyətə gəlməsi ilə təkcə öz ölkələri üçün deyil bütün bəşəriyyət üçün daha böyük təhlükəyə çevrilmişdir. 1941-1945-ci illərdə başlanan ikinci dünya müharibəsinin qələbə ilə bitməsində bu gün fəxrlə deyə bilərik ki, xalqımızın, Bakı neftinin xüsusi rolu vardır. İlk dövrlərində düşmənin xeyrinə olan müharibədə Almaniya qəfildən sovet ordusuna hücum edərək onun 1.5 milyon canlı qüvvəsini əsir götürüb, xeyli texnikasını sıradan çıxartmışdı. Çətinliklə üzləşən sovet ölkələri isə bu məqamda "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" devizi altında bütün güclərini birləşdirərək sonda qələbəyə nail olurlar. Burada Azərbaycan da sovet ölkəsi kimi demək olar ki, bütün sahələrdə xüsusilə neftini cəbhədən əsirgəmir. Xalqımız döyüşən orduya ardı-arası kəsilməyən yanacaq, silah, döyüş sursatı, paltar və ərzaq göndərir. Hətta 600 mindən çox canlı qüvvə ilə də döyüşdə iştirak edir. Bu döyüşçülərdən H. Aslanov, M.Hüseynzadə, Ə.Cəbrayılov və başqa azərbaycanlı qəhrəmanların müharibədəki qəhrəmanlığı barədə nəinki ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda belə kifayət qədər məlumatlar var. Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov Böyük Vətən müharibəsində Fransa müqavimət hərəkatında iştirak etmiş Azərbaycanlı qəhrəmanlardan biri olmuşdur. O, döyüşlərdə "Armed", Mişel", "Xarqo" və başqa adlarla Fransanın azadlığı uğrunda döyüşərək Fransanın yüksək mükafatları və orden-medalları ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın bu igid oğlu Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinin geniş şəkildə qeyd edilməsi haqqında bu il avqustun 11-də xüsusi Sərəncam imzalamışdır. Sərəncamda əfsanəvi

qəhrəmanın yubileyinin geniş şəkildə qeyd edilməsi haqqında prezident tərəfindən nazirliklərə tapşırıq verilir.

Həmçinin sərəncamda bildirilir ki, Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu mayor Mikayıl Cəbrayılovun da atası kimi Azərbaycanın ilk Milli qəhrəmanlarından biri olduğu bildirilir. Sərəncamda qeyd edilir ki, xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Ə. Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Qeyd etdik ki, sərəncama əsasən, gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Ə. Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd edilməsi məqsədilə əfsanəvi partizanın yubileyinə dair bir sıra tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Bir mədəniyyət müəssisəsi olaraq bu cəsur qəhrəmanın 100 illik yubileyi münasibətilə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da bir sıra yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulub. Hazırladığımız bu metodik vəsaitdə keçirilməsi nəzərdə tutulan tədbirləri əhatə edir. Vəsait onun həm həyatını, keçdiyi döyüş yolunda göstərdiyi cəsurluğunun təbliğatı üçün bir tövsiyə xarakterlidir. Burada keçirilməsi nəzərdə tutulan bir çox tədbir formaları verilmişdir. Bunlardan əfsanəvi qəhrəman haqqında məlumatların yer aldığı kitabların sərgiləri, video çarxlar, bukletlər, xatirə gecəsi, sual-cavab və viktorinalar keçirilməsi verilib. Vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulmuşdur.

## Həyatı və müharibədə iştirakı

Əhmədiyyə Cəbrayılov 22 sentyabr, 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra 1935-ci ildə Şəkidə Kənd təsərrüfatı texnikumunun Zootexnika və aqronomiya fakültəsinə daxil olmuşdur. 1938-ci ildə buranı Aqronomiya ixtisası üzrə bitirib və növbəti illər də Quba-Qusar-Xaçmaz-Dəvəçi-Yalama rayonları zonasında ipəkçi kimi işləmişdir. 1940-cı ildə Kommunist Partiyasına daxil olan Əhmədiyyə təhsil aldıqdan sonra Böyük Vətən müharibəsi illərində könüllü cəbhəyə yollanmışdır.

Könüllü olaraq cəbhəyə yollanan qəhrəman Orconikidze diyarının Nevinnomıssk şəhərindəki aviasiya məktəbində hazırlıq keçdikdən sonra döyüşlərə qatılmışdır. Bir neçə ay davam edən kursları bitirdikdən sonra kiçik leytenant rütbəsi alaraq Moskva yaxınlığında yerləşən 35-ci divizionun 350-ci bombardmançı eskadriliyasına, texniki xidmət sahəsinə təyin olunmuşdur.

1942-ci ilin aprelində Ukraynanın şəhərinə göndərilmiş və orada 350-ci polkun siyasi rəhbərinin köməkçisi təyin olunmuşdur. Bu polkun tərkibində o, Ukraynanın Barvinki-Lozovaya-İzyum rayonu ətrafında gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlərdə uğur qazanan döyüşçü burada Baş leytenant rütbəsinə layiq görülmüşdür.

### Əsirlik

Döyüşlərinin birində 1942-ci ilin aprel və ya may ayında onun təyyarəsi Kursk ətrafında vurulduğundan o 350-ci polk çayının sahilində, İzyum çayının yaxınlığından ağır yaralanır və almanlara əsir düşür, Barvinka və Lvov yaxınlığındakı həbs düşərgələrinə göndərilir. Uzaq olduğundan bir düşərgədən başqa

düşərgəyə çatmaq onun üçün 3 ay çəkir, hər gün piyada təxminən 60 km yol gedəsi olur.

O, 1943-cü ildə Daxau həbs düşərgəsinə aparılan Əhmədiyyə burdan qaçmağa cəhd etsə də cəhdi baş tutmur. Almanlar onu yenidən Fransanın cənubunda, Tuluza şəhəri yaxınlığındakı Montoban həbs düşərgəsinə göndərirlər. Bu həbsxanada o vərəm xəstəliyinə tutulur və vəziyyəti pis olur.

1943-cü ildə həbsxana komendantının qulluqçusu madam Jannanın köməyi ilə fransız vətənpərvərləri almanların diqqətini yayındırmaq üçün Əhmədiyyəni tabutda gizlədib xilas etmək üçün Jannanın evindəki zirzəmiyə gətirirlər. Bir neçə müddətdən sonra burada göstərilən qulluqdan sağalan Əhmədiyyə faşistlərdən qisas almaq üçün qəti qərara gəlir və özünü buna hazır hesab edir. Bunun üçün fransız dilini öyrənərək “Xarqo”, “Fraji”, “Qoçaq”, “Ryus Armed” və s. ləqəbləri ilə gizli fəaliyyət göstərir. Onu axtaran işğalçı alman hakimiyyət orqanları onun başına 10 min alman markası mükafat təyin edir. Lakin qisas almağı qarşısına məqsəd qoyan Əhmədiyyə Cəbrayılov Müqavimət hərəkatı zamanı 1944-cü il 22 mayda əvvəlcə Kaberta partizan dəstəsinə, sonra isə kapitan Delplankın komandanlıq etdiyi Düma Gizli Ordusuna keçir. Əhmədiyyə bu dəstənin Tarn və Qaronun azad edilməsi uğrunda apardığı bütün döyüşlərdə iştirak edir. 1944-cü il 19 avqustda Montobanın azad edilməsi və buna qədərki digər əməliyyatlara qatılır.

20 avqustda azad edilmiş Parisdə general Şarl de Qoll Əhmədiyyə Cəbrayılov ilə görüşür. 28 avqustda Əhmədiyyə Montobanda yaradılan 3-cü briqadaya daxil olaraq Vozj və Elzasdakı döyüşlərdə iştirak edir.

1945-ci il 1 martda o, 3-cü briqadanın 4-cü eskadronuna daxil olur. Bir sıra tapşırıqlarla yanaşı, Əhmədiyyə Cəbrayılov dəmir yol xətlərini partladaraq düşmənin minlərlə fransızı Almaniyadakı həbs düşərgələrində apararaq işlətmələrinə mane

olur. Həbs düşərgəsinə aparılan 500-ə yaxın fransız uşağı xilas edən zaman, yaralanmış və alman zabiti formasında olduğu üçün bir müddət alman hərbi hospitalında müalicə alır. Müalicəsi bitdikdən sonra, Albi şəhərinə hərbi komendant təyin olunur. Burada alman zabiti kimliyində partizanlara çox əhəmiyyətli məlumatlar ötürür. Daha sonra bütün komendatura zabitlərini əsir götürərək partizanlara təhvil verir. O, şəhərdə körpüləri sıradan çıxarır, alman anbarlarını və faşist zabitlərinin yaşadıqları evləri yandırır. Onun başçılığı altında Lion şəhərinin mərkəzində düşmən tankları məhv edilir. Müvəffəqiyyətlə aparılan təhlükəli əməliyyatların müqabilində Fransa Kommunist Partiyasının baş katibi ona xüsusi tapança hədiyyə edir.

O, Fransada bir qrup partizanlarla birgə martın 16-da 3-cü briqadadan tərxis olunur. 1945-ci ilin mayında Birinci Fransız Ordusunun tərkibində yenidən Vozj və Elzasda gedən döyüşlərə qatılır.

1946-cı ildə Əhmədiyyə qəti qərara gələrək vətəninə qayıtmaq istəyir. Fransa onun hərbi şücaətlərini layiqincə qiymətləndirir və onu ölkəsinin medal və ordenlərilə təltif edir, o cümlədən şəxsi igidliyə görə sıravi əsgərə hərbi paradda generaldan irəlidə addımlamaq hüququ verən “hərbi medal” ı ilə  təltif edir.

25 noyabr 1946-cı ildə Şarl de Qollun köməyi ilə Əhmədiyyə SSRİ-yə qayıdır. Amma burada o, vətən xaini kimi qəbul olunur və Moskvadakı yoxlamaların birində onun mükafatlarının bir hissəsi əlindən alınır.

1947-ci ildə Sürəyya xanımla ailə həyatı qurur, 1948-1962–ci illərdə onların bu nigahdan 7 övladları dünyaya gəlir. 1964-cü ildə Əhmədiyyə Gəncədə Kirovabad Kənd Təsərrüfatı İnstitutunda yarımçıq qoyduğu təhsilini davam etdirir. 1966-cı ildə Fransa prezidenti Şarl de Qoll SSRİ-yə səfəri zamanı Əhmədiyyə Cəbrayılovu görmək istədiyini bildirir və onu

Moskvaya çağrırlar. Araşdırmalardan sonra 1968-ci ildə Sovet hökuməti tərəfindən verilən "vətən xaini" adı onun üstündən götürülərək ona bəraət verilir. 1970-ci ildə Kənd Təsərrüfatı İnstitutunda təhsilini başa vurub Şəkinin Nərimanov adına kolxozunda baş aqronom işləyir. 1971-ci ildə isə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunur.

1972-1982-ci illərdə döyüşlərdə iştirak etdiyi yerləri gəzməyə icazə verilən qəhrəman yenidən Montoban, Rodez, Tuluza, Albi şəhərlərinə gedir, həmçinin Paris, Bordo, Strazburq, Lion, Dijon və Marseldə olur. Burada keçmiş döyüş yoldaşları ilə görüşür. 1975-ci ildəki səfərində Fransa Senatında senator Jak Düklo ilə görüşür və ona bu görüşdən xatirə medalı təqdim edilir.

1976-cı ildə isə müharibədəki iştirakına görə qəhrəman "Oktyabr İnqilabı Ordeni" ilə təltif olunur.

1977-ci ildə isə Tarn və Qaronda keçən Fransa partizan hərəkatında birgə iştirak etdiyi Rene Şambar SSRİ-yə gəlir və Əhmədiyyə Cəbrayılovla görüşür.

1986-cı ildə Əhmədiyyə Cəbrayılov Fransanın 5 mükafatına layiq görülür — *Müharibə Xaçı, Hərbi şücaət xaçı, Fransa Müqavimət hərəkatı medalı, İgidliyə görə medal, Yaralanmağa görə medal*.

1990-cı ildə Şarl de Qollun anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün də onu Parisə dəvət edirlər.

1994-cü ilin 6 yanvarda isə Front National milli hərakat məmuru Rene Rassel Əhmədiyyə Cəbrayılova Fransa Müqavimət hərəkatında iştirakını təsdiqləyən sənədi təqdim edir.

## Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illik yubileyi ilə bağlı keçiriləcək tədbir formaları

**Kitab sərgisi**

Fransanın milli qəhrəmanı həmyerlimiz Əhmədiyyə Cəbrayılovun yubiley tədbirləri ilə bağlı kitabxanalarda keçirilən əyani təbliğat formalarından ən mükəmməli sərgilər olar. Həcminə, tərtibat xarakterinə, müddətinə görə bir-birindən fərqlənən sərgini bir və ya bir neçə lövhədə, stenddə qura bilərik. Belə sərgilər əsasən baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi qaydalarının oxucuların cəlbində böyük əhəmiyyəti vardır. Burada qəhrəman haqqında verilmiş mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Əfsanəvi qəhrəman Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyi ilə bağlı kitabxanada ona həsr edilmiş film materiallarından, dövri mətbuat materiallarından, haqqında yazılmış kitablardan ibarət bir sərgi hazırlaya bilərik. Sərgini qurmaq üçün bu başlıqlardan istifadə edirik. "*Əhmədiyyə Cəbrayılov – 100* ", "*Fransa milli partizan hərəkatının əfsanəvi qəhrəmanı* ", "*500 fransız uşağın həyatını xilas edən həmyerlimiz"*, "*Əfsanələşən partizan ömrü*", *"Fransada qəhrəmanlıq tarixini yazan Azərbaycanlı", "Fransanın Azərbaycanlı qəhrəmanı"* və s. Qəhrəman haqqında olan məlumatlardan hazırladığımız sərginin sxemini təqdim edirik:

1. Başlıq;
2. Haqqında yazılmış kitablar;
3. Döyüş yolundan bəhs edən vəsaitlər;
4. Məktubları;
5. Fotolar.







Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri əks etdirilə bilər ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırar.

Əhmədiyyə Cəbrayılovun İkinci Dünya müharibəsində Fransa müqavimət hərəkatında həqiqətən iştirak etməsini onun yaxın dostu, döyüş yoldaşı Rene Şambarın məktublarından öyrənmək olar. R.Şambar bu məktublarda özünün Fransa müqavimət hərəkatına qoşulmasından, fransız partizan dəstələrinin faşist Almaniyasına və Filip Petenin başçılıq etdiyi Vişi rejiminə qarşı mübarizəsindən, sovet əsgərlərinin bu mübarizədə iştirakından bəhs edir. O, xüsusi olaraq özünün tabeliyində olan Armed Mişelin döyüş yolu, onun almanlara əsir düşməsi və əsirlikdən qaçması, partizanlara qoşulması, yüksək hərbi bacarıqları, Fransanın azadlığı uğrunda göstərdiyi fədakarlıqlar haqqında geniş məlumatlar verir. Həmçinin bu sənədlər onu da sübut edir ki, qəhrəmanlar kimi, döyüş meydanındakı qəhrəmanlıqlar da heç vaxt unudulmur. Sərgidə bu məktubları *“Partizanın döyüş yolu”* başlığı ilə yerləşdirib oxuculara məktubları təqdim edə bilərik.

## Birinci məktub

...O dövrdə mən dəstə başçısının müavini, eyni zamanda mühafizə və əlaqələndirmə agenti idim. Məxfi Ordunun komandanlarının gizli görüşlərinin təhlükəsizliyini təmin etmək məqsədilə partizanlarla birgə dəfələrlə Montobana getmişdim. Orada Das Reich diviziyasının qoşun hissələri yerləşirdi. Partizanlarla birgə Məxfi Ordu komandanlarının gizli toplantısının mühafizəsini təşkil etməli idim. Həmin görüşlərdə bölgənin silahlı qruplarının birləşdirilməsi barədə qərar qəbul edilmişdi. İyunun 8-də Normandiyaya desant çıxarılması zamanı Kaberta meşələrində fəaliyyət göstərən qrupda 80 silahlı və 250 silahsız partizan vardı. Bizə paraşütlərlə silah çatdırmaq vəd olunmuşdu. Məhz Kabertada, mayın 23-də kapitanımız Əhməd Cəbrayılovu yanımıza gətirdi. O, bizim üçün Xarqo idi. Xarqo əvvəlcə İspaniya Respublikası qrupunun, sonra isə Frakas adlanan qrupun üzvü idi. Hər qrupun xüsusi adı vardı. Təəssüf ki, 250 könüllü silahlanmağa macal tapmadan SS nasistləri onlara hücum etdilər. 80 zəif silahlı partizan 250 silahsız partizanı qorumalı idi. Onlar zirehli texnika və odsaçan silahlarla təchiz olunmuş SS diviziyasına qarşı dayanmalı idilər. Həmin gün partizanlardan çoxu öldürüldü və diri-diri yandırıldı. O hücumdan sonra partizanların kiçik qruplara bölünməsi qərara alındı. Bu səbəbdən Əhmədi yalnız avqustun 19-da, Montobanın azad edilməsi zamanı gördüm. O, həmin əməliyyatda fəal iştirak etmişdi. Əməliyyatın ertəsi günü nasistlərin təqib edilməsinə başlanıldı. Müqavimət hərəkatı mənim Əhmədin əlaqə qurduğu digər sovet əsgərləri ilə də tanışlığıma imkan yaratdı. Biz birlikdə nasist qüvvələrinin təhlükəsi ilə üzləşən Tuluza şəhərinə yollandıq. Əhməd məhəlləni yoxlamağa getdi və döyüş üçün hazır olan bir qrup sovet partizanı ilə qayıtdı. Fikrimcə, onlar Aveyron partizanlarından olan azərbaycanlı əsgərlər idilər. Biz

kapitana gələnlərin bizimlə qalmaq istədiklərini bildirdik, ancaq o, bunu qəbul etmədi. Sonrakı günlərdə nasistləri qovub çıxardıq. Baş qərargahın xarici vətəndaşların geri çağırılması barədə əmrindən sonra kapitanımız 5 sovet əsgərinin bizimlə qalmasına razılıq verdi. Onlar bacarıqlı əsgər və gözəl yoldaş idilər. Məhz həmin andan etibarən daim mənim sərəncamımda oldular. İrəliləyişimiz general Latr de Tasinyinin I Fransız Ordusu ilə birləşənə qədər davam etdi. Sonra da həmin ordunun tərkibində mübarizəni qələbəyədək apardıq. Bütün bu müddət ərzində Əhmədin (Xarqo) hərbi biliklərini, sədaqətini, səmimi yoldaşlığını yüksək qiymətləndirirdim. Qələbədən sonra ayrılsaq da, bir-birimizi unutmadıq. O, sonradan Fransaya "Humanite" qəzeti vasitəsilə məktub və fotoşəkil göndərmişdi. "Humanite" qəzeti həmin məktubu Kommunist Partiyasının Tarn və Qaron Federasiyasına göndərmişdi. Xoş təsadüfə bax ki, Kommunist Partiyasının üzvü olduğum üçün Federal katib məktubu açanda orada idim. O, zərfi açaraq məndən soruşdu ki, yoldaş Şambar, onu tanıyırsanmı? Heyrətimdən donub-qaldım – şəkildəki Əhməd idi. Bildiyim qədər, Əhmədlə general Şarl arasında xüsusi dostluq münasibətləri yox idi. Apardığım araşdırmalara əsasən düşünürəm ki, general Şarl de Qollun Moskvaya səfəri zamanı Əhmədə Moskvadan tədbirdə iştirak üçün dəvət məktubu gəlib.

Bu səpkidən döyüşçü haqqında mənbələrdə həqiqəti təsdiq edən ikinci məktub isə belədir:

***İkinci məktub***

*Əhməd Mişel Cəbrayılov (Xarqo)*

…Strutof düşərgəsində o, 4167 saylı əsir idi. Orada dəhşətli həyat yaşanırdı. SS həkimləri çoxlu başqa əsirlərlə bərabər, onun

da üzərində təcrübələr aparırdılar. Məhz orada ona xoşbəxtlik gətirən kiçik dəsmalla bağlı suala cavab tapa bilərik. Belə ki, müharibəyə yollanan zaman bir tanış qızın onun üçün tikdiyi kiçik dəsmal həyatını xilas etdi.

Fransaya sonuncu səfəri zamanı o, həmin hadisəni mənə danışmağa çalışdı.

Onu bir qrup yoldaşı ilə birgə soyunmağa məcbur etmişdilər. Bu zaman ağlına gəlmişdi ki, dəsmalı ağzına qoysun. Sonra onları qaz testindən keçirmişdilər. Təcrübə bitdikdən sonra əsirləri çıxaran gözətçilər SS həkiminə bildirdilər ki, əsirlərdən biri ölməyib. Həkim isə demişdi ki, dəyməyin, onsuz da, öləcək. Bu hadisə SS həkimi üçün istisna hal idi. Amma Xarqo əməliyyatda iştirak edən bir gözətçi vasitəsilə özünə gələ bilmişdi.

Xarqo yenidən düşərgə həyatına qayıtdı və yoldaşları kimi, düşərgədən kənarda işlərə cəlb olundu. Çox ehtimal ki, Valrua şaxtalarında işləmişdi. Onun bir çox yoldaşı ağır iş şəraiti səbəbindən orada öz həyatını itirmişdi. Həmin yerin lap yaxınlığındakı məzarlıqda çoxlu əsirlər yatır. 1964-cü ildə Valruada çəkilmiş sənədli filmdə görürük ki, Əhməd Cəbrayılov ölkəsindən gətirdiyi dirəklə yoldaşlarının məzarlarını axtarır. 1943-cü ilin sonunda onun da olduğu bir konvoy Rodezdəki kazarmaya göndərilir. Məhz orada o, Fransa müqavimət hərəkatı ilə əlaqəyə girməyə çalışır və çox ehtimal ki, həmin vaxt azərbaycanlı olmayan bir yoldaşla görüşür. Özünün dediyinə görə, müqavimət hərəkatının üzvlərindən fransızlarla, bir çexlə, bir polyakla, bir rusla əlaqə yaradır. Araşdırmalara əsasən, həmin rusun Qriqori Rumanyuk olduğunu söyləmək olar. Onun dediklərinə görə, onlar kiçik bir kilsədə toplaşırdılar. Müharibədən sonra – 1999-cu ildə cəbhə yoldaşlarıyla görüşdə belə məlum oldu ki, Rodezdə yerləşən kafelər, barlar müqavimət hərəkatına dəstək verib və həmin məkanlardan gizli toplantı

yerləri kimi istifadə olunub. Bonafu, Diet və Kabriolun fikirlərini nəzərə alsaq, Rodezdəki Fransa müqavimət hərəkatında azərbaycanlılar təşkilati fəaliyyət göstərib və orada Lot departamentinin partizanlarının məsul nümayəndələri olublar. Əhməd, Besi adlı şəxsdən söhbət açır. Üstündən bu qədər vaxt keçəndən sonra həmin kazarmada azərbaycanlılarla bağlı baş verən ozamankı hadisələri anlamaq istəyirdik. Əhməd Mişel bunu bilirdi və bizə izah etməyə çalışırdı. Biz həmin dövrə kifayət qədər əhəmiyyət verməmişdik. Şahidlər təsdiqləyirlər ki, gestapo və SS üzvləri sayıq və amansız idilər. Kazarmada hər gün avtomat səsləri eşidilirdi. Nasistlərin kremasiya sobaları var idi. Bu səbəbdən də Rodez məzarlığında dəfn edilənlərin sayı ölənlərin sayından azdır.

Arxivlərdə belə bir rəsmi məlumat var ki, azərbaycanlıları daşıyan yük maşını güllələnmə məqsədilə Müqəddəs Radeqond səngərinə yola düşür. Yolda onlar müqavimət göstərirlər və yeddi nəfər qaçmağa nail olur. Bunu əminliklə demək olar ki, nasistlər Aveyron departamentində xeyli azərbaycanlı öldürmüşdü.

Əhməd Mişel Cəbrayılov Rodezdə baş verənlər haqqında çox şey bilirdi. O, bu barədə öz xatirələrində yazmışdı. Sənədli film çəkilişi üçün Fransaya səfəri zamanı onu anlaya bilmirdik. O, yaşadığı bu faciəni həyat yoldaşıma və mənə izah etməyə çalışırdı. Əhməd bizi birinci xiyabandan sol tərəfdə yerləşən məzarlığa apardı, orada böyük bir çəmənlik yerləşirdi. O, xanımımla birgə məzarlığın çıxışına qayıtdı və yola çıxıb məzarlığı fırlanaraq, buradan necə qaçdığını əyani göstərdi.

Sonra Əhməd Montoban xəstəxanasına köçürüldü və burada onu müalicə etdilər. Bu ərəfədə də dediklərini yoxladıq, hamısı doğru idi. Montobana səfərim zamanı, bizi Eli küçəsinə apardı və uzun müddət bir məkanı axtardı. O nə axtarırdı? Bəlkə, bir yeri, bir adamı, bəlkə də, hər ikisini. İşğal zamanı həmin küçədə

həbsxana apteki yerləşirdi. Bəlkə, o, haqqında çox danışdığı xanım Janna ilə burada tanış olub? Ola bilər, çünki bu ad o dövrün Montoban xəstəxanasının arxivlərində yoxdur. Ancaq mənə elə gəlir ki, qadınla arasında sadəcə dostluq münasibətləri yaranmışdı və onun vasitəçiliyi ilə şəbəkəmizlə əlaqəyə girmişdi. Həmin qadın Əhmədə yardım etdi və o, başqa şəhərə getdi. Sonra kapitan Delplankın sərəncamına keçdi. Kapitan Delplank 1944-cu il mayın 22-də onu Kaberta partizan dəstəsinə aparır. Xarqo bir müddət İspaniya respublikaçılarının yaratdığı qrupun, sonra isə Frakas qrupunun tərkibində fəaliyyət göstərir. 1944-cü il iyunun 20-də nasistlər dəstəmizə hücum etdilər. Partizanlar müstəqil qruplara bölünmək məcburiyyətində qaldı, yalnız Montoban şəhərini azad edən zaman birgə fəaliyyətə keçdik.

Montoban azad ediləndən sonra birlikdə olduq, düşməni Albiyə, sonra isə Tuluzaya qədər təqib etdik. Tuluzanın ətrafında mövqe tutduq. Tarn və Aveyron departamentlərindən də əlavə qüvvələr göndərildi. Bu zaman bir qrup sovet əsgəri olduğumuz yerə gəldi. Gələnlərin Aveyron, yoxsa Tarn partizanları olduqlarını deyə bilmərəm. Onlar artıq yanımızda olan sovet əsgərləri Əhməd Mişel, Qriqori Konovalçuk, Vasili Baçinski ilə söhbət edirdilər. Bizimlə birgə vuruşmaq istədiklərini bildirdilər. Zabitlərimiz dedilər ki, bu, mümkün deyil, öz qruplarına qayıtmalıdırlar. Yalnız onlardan biri, Vasili Liçinski bizimlə qaldı. Onun qalmasını Əhməd təkid etmişdi, çünki bir-birlərini tanıyırdılar. Görünür, Rodez əsirliyindən tanış idilər. Nəzərə almaq lazımdır ki, Rodezdə əsirlər arasında xeyli Tarn və Aveyron partizanları var idi. Onların sırasına fərdi şəkildə və ya qiyamdan istifadə edərək həbsdən qaça bilmiş sovet əsgərləri qoşulmuşdu. Partizanların çoxunu nasistlər ələ keçirmiş və güllələmişdilər. Regionumuz azad edildikdən sonra ölkəmizin nasistlərdən təmizlənməsinə başlandı. Bu məqsədlə

üzərimizə könüllü öhdəlik götürdük və Montobandan üçüncü süvari alayının eskadron qrupuna keçdik. Həmin qrup Tuluza briqadasının tərkibinə daxil idi. 1-ci fransız ordusunun tərkibinə daxil olan 3-cü Əlcəzair piyada diviziyası ilə birgə Fransanın cənub-qərbindən ölkənin şərqinə doğru irəlilədik və bizə həvalə olunan bütün missiyalarda iştirak etdik. Əmrləri hər an yerinə yetirməyə hazır olan Əhməd Mişel Cəbrayılov həmişə əsgərlərə ruh verirdi və bizimlə birgə olan sovet əsgərlərindən ibarət qrupun lideri idi. Əhməd Voj departamentində yüngül yaralandı və alayın tibb məntəqəsində müalicə olundu.

Təəssüf ki, həmin əcnəbi döyüşçülərin fədakarlığı kifayət qədər qiymətləndirilmədi. Yoldaş Xarqo Fransız ordusuna könüllü daxil olan, müqavimət hərəkatında könüllü iştirak edən döyüşçü idi.

Onun dediyinə görə, hərbi xaça layiq görülmüşdü. Lakin burada eskadronumuzun və general Latr de Tasinyinin təltif etdiyi hərbi xaçdan söhbət gedir və Əhməd də eskadronun tərkibinə daxil idi. Moskvadakı araşdırmalarıma əsasən və mənə dediyinə görə, general Şarl de Qoll Moskvaya səfəri zamanı onu heç bir mükafatla təltif etməyib.

Ancaq general Şarl de Qollun Moskvaya səfəri zamanı mərasimdə SSRİ-nin müxtəlif respublikalarından olan döyüşçülər iştirak ediblər. Azərbaycandakı yoldaşımız, qardaşımız Əhməd Mişel (Xarqo) barədə çox yazılıb. Onun haqqında yazmaq mənim vicdan borcumdur. Əhmədin müharibə dövründə yaşadığı illər söylənildiyindən də ağır keçib. Araşdırmalarımızda onun bütün iztirablarını göstərə bilməmişik. Qardaşımız Əhməd Mişelin vəfatından altı il keçib. Əhmədin böyüklüyünü zamanla daha çox anlayacağıq. Onun keçmişini araşdırarkən aydın olur ki, fransız ordusunda yüksək səviyyəli əsgər olan Əhməd öz ölkəsi Azərbaycanın fəxri idi.

Qələbədən sonra da Xarqo müharibəni, yaddaş müharibəsini davam etdirirdi. O, Fransa torpağında dəfn olunan azərbaycanlılar, həmçinin nasistlərə qarşı birgə döyüşdüyü fransızlar barədə araşdırmalar aparmışdı. Montobanda sənədli film çəkilən zaman o, Bordoya getdiyini söyləmişdi. Bu, bizə qəribə göründü, çünki müqavimət hərəkatı dövründə Bordo bölgəmizə daxil deyildi. Məhz indi öyrənə bildim ki, o, azərbaycanlılar haqqında araşdırmalar aparan Düpüi ilə əlaqə yaratmağa çalışıb. Düpüi artıq uzun illərdir ki, vəfat edib və Bakı ilə əlaqələri də keçmişdə qalıb. Bakıda bu sahədə araşdırmalar bərpa oluna bilər. Azadlıqsevər, faşizmə qarşı vuruşmaq üçün öz həyatları bahasına Fransa müqavimət hərəkatına qoşulmuş Əhməd Mişel, Ömər, Vasili və başqalarının sayı nə qədərdir.
Bu bir neçə səhifədə qardaşımız Xarqonun keçmişinə işıq salmağa çalışdım. Gələcək nəsillər üçün yazdıqlarım həyatda güclü, cəsarətli olmağa sövq edən ilham qaynağı olacaq.

Bu, həm də qardaşımız Əhməd Mişelin xatirəsinə ehtiramımın ifadəsidir.

***Üçüncü məktub***

…Əhmədiyyə Cəbrayılovla görüş: Həmin görüş barədə hazırladığım məruzədə, həmçinin onun olduğu müxtəlif həbs düşərgələri ilə bağlı araşdırmaların əks olunduğu hesabatda ətraflı məlumat vermişəm.

***Armed Cəbrayılov kim idi?***

Mənim – bir fransız zabitinin əmrlərini yerinə yetirən Qızıl Ordu döyüşçüsü qardaşım Əhməd haqqında danışmaq mənim üçün çətindir. O, partizanların sırasına daxil olandan həmişə mənim tabeliyimdə olub. O, sovet əsgəri, mən isə buraxılmış ordunun kommunist zabiti idim. Bütün bu hərəkat general Şarl

de Qollun ətrafındakı şəxslərin yaratdığı təşkilatla gizli əməkdaşlıq şəraitində formalaşmışdı. Silahların çatdırılması paraşütlər vasitəsilə həyata keçirilirdi.

Lakin etiraf etmək lazımdır ki, partizanlardan ibarət FTPF kommunist təşkilatının üzvlərinin fəaliyyəti çox vaxt unudulur. Amma işğalçılarla, həmçinin faşistlərlə əməkdaşlıq edənlərə polis dəstələrinə qarşı məhz onlar daha səmərəli mübarizə aparıblar.

Əməliyyat barədə əmrləri bizə Londondan – general Şarl de Qolldan gəlirdi. Fransadakı siyasi partiyalar general Şarl de Qollun əmrləri əsasında müqavimət hərəkatının praktik təşkilini həyata keçirirdilər. İşğalçılara və Petenin faşist hökumətinə qarşı daha səmərəli fəaliyyət göstərmək məqsədilə, müqavimət hərəkatının bütün qüvvələrini birləşdirmək üçün general Şarl de Qoll Jan Muleni Fransaya göndərmişdi. Onu da qeyd etmək lazımdır ki, müqavimət hərəkatının bir hissəsi mülki əhalidən təşkil olunmuşdu. Unutmaq lazım deyil ki, daim ölümlə üz-üzə idik, lakin bu bizi qorxutmurdu... Bütün bu çətinliklərə baxmayaraq, üzərimizə düşən missiyanı həyata keçirə bildik.



Qəhrəmanın oğlu Mikayıl Cəbrayılovda polis orqanlarında çalışıb və 1990-cı illərdə ermənilərin Azərbaycanlılara qarşı etdikləri basqınların qarşısını alarkən qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra 1992-ci ildə isə mayor Mikayıl Cəbrayılov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qeyd edək ki, Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi

dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov və oğlu Mikayıl Cəbrayılovun xatirəsinin əbədiləşdirilməsi üçün bir sıra işlər görülüb. Şəki şəhərində qəhrəmanın adına küçə var. Doğulduğu Oxud kəndində isə ümumi orta məktəb onun adını daşıyır. Vaxtilə Şəki şəhərində yaşadığı evdə ailə üzvlərinin təşəbbüsü ilə yaradılan xatirə muzeyi fəaliyyət göstərir. Bundan əlavə, rayonun Oxud, Baltalı, Baş Göynük, Baş Layıqsı, Kiş, İbrahimkənd, Aşağı Göynük və daha bir neçə kəndə də qəhrəmanın adına küçələr var. Ev-muzeyi qəhrəmanın ailə üzvlərinin təşəbbüsü ilə 1995-ci ildə yaradılıb. Muzey əvvəlcə bir otaqdan ibarət olub. Hazırda 4 otaqdan ibarət olan muzeydə əfsanəvi partizanın həyatı və döyüş yollarından bəhs edən 126 sənəd, 4500 foto, 10 mindən çox məktub, haqqında məqalələr dərc edilmiş 996 qəzet və 42 jurnal, 40 kitab və çoxlu sayda digər eksponatlar nümayiş etdirilir. Ev muzeyin yaradıcısı, əfsanəvi partizanın oğlu Cavanşir Cəbrayılovun dediklərinə görə, İkinci Dünya müharibəsi illərində Cəbrayılovlar ailəsindən 5 nəfər cəbhəyə yollansada onlardan ancaq ikisi cəbhədən sağ qayıda bilib.

***Əhmədiyyə Cəbrayılov haqqında deyilmiş fikirlər:***

"Mən bu Azərbaycan oğluna görə SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim " .

**Şarl de Qoll**

*Fransız generalı və siyasətçisi, ikinci dünya müharibəsində alman faşistlərinə qarşı Müqavimət hərəkatının rəhbəri.*

***Kitab icmalı:***




*Təşkil edilən kitab icmalları kitabxanada oxucuların fəallığının artmasında xüsusi rol oynayır. İcmallar oxucuların sərbəst fikir yürütmək qabiliyyətlərinin inkişafına, dünyagörüşün artmasına kömək edir və iştirakçılar tərəfindən maraqla qarşılanır. Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri, döyüşlərdə göstərdiyi şücaətlər işğal altındakı torpaqlarımızı hər an azad etmək üçün oxuculara qəhrəmanlıq hisslərinin aşılanmasına əsl nümunədir. Qəhrəmanın taleyindən bəhs edən "Xarqo" kitabının yuxarı sinif şagirdləri ilə icmalını təşkil edə bilərik. Kitab 1998-ci ildə Bakıda "Şirvannəşr" tərəfindən nəşr edilmişdir. İnanırıq ki, yetkinlik yaşına çatan hər bir Azərbaycan övladı üçün bu kitab bir qəhrəmanlıq örnəyidir.*

**Sual-cavab**

Qəhrəmanın yubiley tədbirlərindən təbliğat formalarından biri də, onu daha yaxından oxuculara tanıtmaq üçün haqqında tərtib edilmiş sual-cavablardır. Gənc nəslə belə bir qəhrəmanımızın həyat və keçdiyi döyüş yollarını çatdırmaq üçün kitabxanaçı sərgi qarşısında uşaqlara məlumat verir. Sual-cavablar paylanır. Cavabları qeyd etdikdən sonar paylanmış sorğular yığılır oxucular qiymətləndirilir.

Kitabxananın sosial şəbəkələrdəki səhifələrində də " *Fransada vuruşmuş Azərbaycanlı generalımız* " adlı müsabiqə təşkil edə bilərik. İlk olaraq müsabiqənin keçiriləcəyi vaxt elan edilir. Düzgun cavabı göndərən iştirakçılar mükafatlandırılır.

1. Əhmədiyyə Cəbrayılov kimdir?

**Cavab:** ___________________________

2. Bu il sentyabrın 22-də qəhrəmanın neçə illik yubileyi tamam olur?
Cavab: 100 (yüz)

3. Əhmədiyyə Cəbrayılov hansı müharibədə almanlara əsir düşmüşdür?
**Cavab:** Böyük Vətən müharibəsində

4. Fransanın " Milli - qəhrəmanı " adına layiq görülmüş həmyerlimiz hansı ləqəblərlə vuruşmuşdur?
**Cavab:** Mişel, Xarqo və s.

5. Qəhrəmanın həyat və döyüş yolundan bəhs edən hansı kitabı tanıyırsınız?
**Cavab:** Zaman Qarayev; Xarqo

6. Kitabda verilmiş Əhmədiyyənin ilk əsirlikdən xilas olma səhnəsi hansı bölmədə verilmişdir?
**Cavab:** Xarqo kimdir? Bölməsi

7. Onu əsirlikdən xilas eliyən Madam Janna kim idi?
**Cavab:** Yerləşdirildiyi əsirlik düşərgəsində xadimə

8. Nə üçün madam Janna Əhmədiyyəyə kömək etmək istəyirdi?

**Cavab:** Çünki almanlar onun qardaşını dar ağacından asmışdılar.

**Xatirə gecəsi**

Şəki rayonunun Oxud kənd qəbiristanlığında ata və oğulun uyuduğu iki yanaşı məzar var. Onlardan birində İkinci Dünya müharibəsinin iştirakçısı, Fransa Müqavimət hərəkatının görkəmli nümayəndələrindən biri, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov, digərində isə onun oğlu, Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə şəhid olmuş Azərbaycanın ilk Milli qəhrəmanlarından olan Mikayıl Cəbrayılov uyuyur. Hər iki qəhrəmanın xatirəsi nəinki doğulub boya-başa çatdıqları Şəki rayonunda, eləcə də ölkəmizin hər bir guşəsində, Azərbaycanın hüdudlarından kənarda da daim əziz tutulur, anılır. Bu gün sizinlə buraya bu ilin sentyabrında 100 illiyi tamam olan əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illik yubileyi ilə bağlı qəhrəmanımızı xatırlamaq üçün yığışmışıq.

**Aparıcı:** Xalqımızın qəhrəmanlıq ənənələrini ölkəmizin hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyev avqustun 11-də Sərəncam imzalamışdır.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə qazanılmasında böyük xidmətlər göstərmiş bir qəhrəmandır. O, Azərbaycan xalqının mərd oğlu kimi müharibədə rəşadətli bir döyüş yolu keçmişdir. Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş böyük həmyerlimiz 1920-ci ilin 22 sentyabrında Şəki rayonunun Oxud kəndində anadan olmuşdur.

**Aparıcı:** Oxud kənd sakinlərinin xatirələrinə görə Əhmədiyyə Cəbrayılov bir insan kimi çox gözəl xarakterə malik idi. Həmyerlilərinin qayğısına qalan, əziyyətini çəkən, həmişə kəndlilərin dərdləri, problemləri ilə maraqlanan, kəndlilərin zəhmətini qiymətləndirən insan olmuşdur.
**Aparıcı:** Kəndlilər də ona çox hörmət edirdilər. Görünüşcə çox zəhmli insan idi. Kənd qadınları ondan çox çəkinirdilər.
**Aparıcı:** Onun Fransa lideri, general Şarl de Qolla yaxın dostluqları olmuşdur. Bu səbəbdən də onu bəzən "De Qoll Əhmədiyyə" çağırırdılar. Hətta Şarl de Qoll Fransa prezidenti olanda Əhmədiyyə Cəbrayılovu "Fəxri legion" ordeni ilə təltif etmişdir. Ona şəxsi ev, prezident dəftərxanasında vəzifə təklif etmişdir. O isə prezidentdən yalnız Azərbaycana qayıtmasında köməklik göstərməsini xahiş etmişdir.
İndi gəlin publisist Zaman Qarayevin bədii və son dərəcə təsiredici dillə qələmə aldığı Xarqo ləqəbli əfsanəvi qəhrəman Əhmədiyyə Cəbrayılovdan bəhs edən “Xarqo” kitabından bir parçaya oxucuların hazırladığı səhnəciyə tamaşa edək.

**Səhnəyə iştirakçılar gəlir.**

**I iştirakçı:** Onun əsl adı Əhmədiyyə idi. Xarqo ləqəbini ona partizanlar vermişdi. O, müharibədən bir il qabaq kənd təsərrüfatı texnikomunu bitirmişdir, öz kəndlərində də aqranomluq edirdi. Qəşəng bir qızla nişanlanmışdı. Yayda evlənmək fikrində idi. Lakin toya bir neçə gün qalmış müharibə başladı. Əhmədiyyə könüllü olaraq ordu sıralarına getdi.
**II iştirakçı:** Lakin ilk gündən onu cəbhəyə göndərmədilər. O, zabitlər məktəbində oxumağa başladı, qısa müddət ərzində leytenant rütbəsi aldı və polkların birinə siyasi rəhbər təyin edildi. Elə ilk döyüşlərin birindəcə yaralanmış minomyotçunu əvəz etdi. Yeri-göyü lərzəyə gətirən bu döyüşün sonunu Əhmədiyyə görə bilmədi. Ağır yaralı halda düşmənin əlinə keçdi.

**I iştirakçı:** Gözünü açanda komandir yoldaşı Fazil Cəfərovda yanında özünü qaranlıq kamerada gördü.

*Səhnə qurulur yarıişıqlı, yarıqaranlıq otaq. Səhnədə hərbi geyimdə 2 iştirakçı görünür:*

**Əhmədiyyə:** Biz hardayıq yoldaş kapitan?

**Kapitan:** Bura İzyum şəhəridir. Almanlar bizi əsir alıblar - qəzəbli səslə.

**Aparıcı:** Əhmədiyyənin boğazı qurudu, başı hərləndi düşüncəli geniş açılmış gözlərini Fazil Cəfərova zillədi. Onun da vəziyyəti ağır idi. Cəbhədə aldığı güllələr, almanların verdiyi işgəncələr onu da əldən salmışdı.

**Əhmədiyyə:** Neçə vaxtdır burdayıq?

**Kapitan:** İki gündür!

**Əhmədiyyə:** Qaçmağa imkan yoxdur?

**Kapitan** – Yox

Həmin gün əsirləri vaqona doldurub Almaniyaya yola saldılar. Əhmədiyyə Cəbrayılovla Fazil Cəfərovu ayrıca bir kameraya saldılar. Yaraları sızıldayan Əhmədiyyə xəbər aldı:

- Biz nə etməliyik yoldaş kapitan?

**Kapitan:** Qarşımızda iki yol durur: Ya onlara qul olmalıyıq, yada ölməliyik. Mən ölümü qəbul edirəm Sən necə yoldaş leytenant.

**Əhmədiyyə:** Sənin yerinə mən olsaydım yoldaş kapitan ayrı yol seçərdim.

**Kapitan:** Hansı yol?

**Əhmədiyyə:** Müvəqqəti olaraq onların dedikləri bütün sözlərə əməl edin.

**Kapitan:** Cod səslə dilləndi sonra?

**Əhmədiyyə:** Sonrada fürsət düşən kimi qaçın!

**Kapitan:** Bəs sən?

**Əhmədiyyə:** Mən davasız-dərmansız sağalacağıma inanmıram. Barı siz sağ qalın.

**Kapitan:** Mən onlarla xoş danışa bilmərəm! Heç vaxt bunu bacarmayacağam.

Kameranın qapısı açıldı ortaboylu, nazikbədənli alman əsgəri içəri girib əsirləri mayor Qotfridin otağına aparır.
Qotfrid otaqda stol arxasında əyləşimişdi. Əsirləri görüncə:
**Qortfrid:** Cənablar, qorxmayın, biz sizi öldürməyəcəyik. Söhbətimiz baş tutsa, çox güman ki, böyük şərəfə nail olacaqsınız.

*Səhnəyə aparıcılar gəlir:*

***Aparıcı:*** Atalar yaxşı deyib: "Ot kökü üstə bitər". Əhmədiyyə Cəbrayılovun oğlu Mikayıl da hələ uşaq vaxtlarından atası kimi qəhrəman olmağı arzulayırdı. Polis orqanlarında işləyən Mikayılın arzuladığı kimi də olur. 1990-cı il dekabrın 12-də baş leytenant Mikayıl Cəbrayılov dörd nəfər polis əməkdaşı ilə birgə Qarabağa ezam olunur.
**Aparıcı:** Onlar Xocalı rayonu, Cəmilli kəndinin müdafiəsində iştirak etməli olurlar. Bu dəstəyə Mikayıl başçılıq edir. Polis əməkdaşları əvvəlcə Ağdama gəlib orada müvafiq tapşırıq aldıqdan sonra Cəmilli kəndinə getmək üçün Şuşaya yola düşürlər. Yolda erməni quldurları tərəfindən bir neçə dəfə hücuma məruz qalırlar. Lakin təhlükədən ötüşürlər. Mikayıl Cəbrayılov dekabrın 15-də mühasirədə qalmış Cəmilli kəndinin əhalisi üçün ayrılmış 4 ton taxılı gətirmək məqsədilə Kosalar kəndinə yola düşür. Onunla birlikdə 15 nəfər də gedir.
**Aparıcı:** Cəmilli-Kosalar arasında ermənilər qəflətən onlara hücuma keçir. Snayper gülləsi bir polis serjantını yaralayır. Az sonra da Mikayıl Cəbrayılov çiynindən yaralanır. O, maşından yerə atılıb, yoldaşlarının həyatını xilas etmək üçün quldurlarla ölüm-dirim savaşına girir. Özünü maşının altına verərək, avtomatı sinəsinə sıxıb düşmənə cavab atəşi açmaqda davam edir.

**Aparıcı:** Kənd sakinləri ərazini tərk etsə də düşmən baş leytenantı mühasirəyə almışdı. Məğlubedilməz qəhrəman artıq son güllələrini istifadə edirdi. Lakin o, yoldaşlarını xilas edə bilsə də, özünü xilas edə bilmir. Atılan güllələrdən biri onun sinəsinə tuşlanır. O, Vətən, xalq yolunda qəhrəmancasına həlak olur.

**Aparıcı:** Dövlətimiz xalqımızın qəhrəmanlıq tarixində yeri olanlara həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Mikayıl Cəbrayılova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

**Aparıcı:** Əhmədiyyə Cəbrayılov da dövlətimiz tərəfindən həmişə xüsusi diqqətdə saxlanılmışdır. Avqustun 11-də ölkə Prezidenti cənab İlham Əliyev Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.




**Aparıcı:** Fransada yaşayan həmyerlimiz - kinorejissor və yazıçı Şain Sinarian qəhrəmanın taleyindən bəhs edən "Bir ömür iki tale" adlı kitabıda çox maraqlıdır.

Kitab "Teas PRESS" nəşriyyatında çap olunmuşdur.

**Aparıcı:** Partizanın qızı Raya Əliyeva atasının xatirəsinin yaşadıldığına görə ölkə rəhbərliyinə minnətdarlığını bildirərək çıxışlarının birində belə demişdir: "Fəxr edirəm ki, əfsanəvi qəhrəmanın qızı, Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Cəbrayılovun bacısıyam. Həmçinin fəxr edirəm ki, atamın, qardaşımın yolu ilə getmək, Vətənimizin keşiyində dayanmaq üçün hər an canından keçməyə hazır olan 3 əsgər böyütmüşəm. İki qəhrəmanın övladı və bacısı olmaq mənim üçün çox böyük şərəfdir. Belə ucalıq hər övlada nəsib olmur".

## Ədəbiyyat siyahısı


**Kitablar**

**Qarayev Z.** Xarqo : roman. - Bakı : Şirvannəşr, 1998. - 122 s.

**Dövri mətbuatda**

**Əhmədiyyə Cəbrayılovun 100** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 avqust 2020-ci il) // Xalq qəzeti. - 2020. - 12 avqust. - № 157. - S. 1 ; Respublika. - 12 avqust. - № 157. - S. 1 ; Azərbaycan. - 12 avqust. - № 157. - S. 1. ; Azərbaycan Müəllimi. - 2020. - 14 avqust. - № 25. - S. 2.

**Ata və oğulun** uyuduğu iki yanaşı məzar : Əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun doğma kəndindən reportaj // İki sahil. - 2020. - 13 avqust. - № 137. - S. 23.

**Cəbrayılov Mikayıl** : Azərbaycanın Milli Qəhrəmanı // Azərbaycan Müəllimi. - 2016. - 9 yanvar. - № 1. - S. 13.

**Əfsanəvi partizan Əhmədiyyə** Cəbrayılovun 100 illiyi qeyd ediləcək // Mədəniyyət. - 2020. - 13 avqust. - № 59/60. - S. 2.

**Əsgərov V.** Azərbaycanın milli qəhrəmanları // Savalan. - 2014. - 11-14 aprel. - № 26. - S. 2.

**Şərifli B.** Əfsanəvi partizanın övladı : [Milli Qəhrəman Mikayıl Cəbrayılov haqqında] // Azərbaycan. - 2017. - 24 noyabr. - № 259. - S. 7.

**Rəhimov N.** Fransada qəhrəmanlıq tarixi yazan azərbaycanlı : Əhmədiyyə Cəbrayılovun şərəfli döyüş yolu // Azərbaycan Müəllimi. - 2020. - 21 avqust. - № 26. - S. 8.

**İlyasov V.** "Xarqo" ləqəbli partizan // İki sahil. - 2020. - 19 avqust. - № 141. - S. 20.

**Rus dilində**

Джумазаде В. Забвению не подлежит : О подвигах азербайджанцев - участников Великой Отечественной Войны // Литературный Азербайджан. - 2020. - № 5. – Свет героических судеб : О подвигах Ахмедии Джебраилова. - С. 22-23.

# Əfsanələşən partizan ömrü – Əhmədiyyə Cəbrayılov

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 34
Çapa imzalanmışdır: 21.09.2020
Tirajı:100
Pulsuz